# TÜRK TARİXŞÜNASLIĞINA "AZƏRBAYCAN" QƏZETİNDƏN BAXIŞ

**Tarix saxtalaşdırmanı sevmir. Ona görə ki, tarixi yazan tək bir adam deyil - bir millətdi, bir xalqdı. Və deməli, bu gün bütün mətbuatın, bütün yazı-pozu adamlarının, daha çox da tarixçilərin hər birinin öz baxış bucağı altında görüb, dəyər verib kitablara köçürdükləri 50-100 il bundan sonra başqa bir tarixçinin ələyində ələnəcək. Və məhz həmin an gerçək tarix üzə çıxacaqdı. Göz önündə olan bir gerçəklik var. Torpaqlarımızı işğal etmiş, böyük Ermənistan iddiası ilə az qala bütün qonşularına meydan oxuyan ermənilər uydurduqları tarixin hər zaman əziyyətini çəkirlər. İstər ən yüksək məqamlarda, istər elmi araşdırmalarda, disskusiyalarda onların saxta tarixi sabun köpüyü kimi əriyib gedir. Məhz bu aspektdən çıxış edəndə onda məlum olur ki, 70 il dünyaya meydan oxuyan Sovet imperiyasının tarix elmi də çox böyük həqiqətlərə kölgə salmaqda israrlı olub.**

Sovet tarixçilərinin, ümumiyyətlə, sovet tarix elminin gerçək tarixə iki baxışı birmənalıdı. Mənə görə bu tarix alt qat üçün, yəni gələcək zamanlar üçün gerçəyi öyrənib arxivlərdə saxlayıb və bir də gerçəyi öz ideologiyasına uyğun şəkildə yazıb təbliğ edibdi. Ona görə də bu gün arxivlərdən başqa bir tarix üzə çıxıb, ədəbiyyatlardan, dərsliklərdən başqa bir tarix. Tələbə dostum, tarix üzrə fəlsəfə doktoru Vaqif Şirinoğlunun bu günlərdə maraqlı bir kitabı çap olunub.




***AMEA-nın Tarix İnstitutunda çalışan Vaqif Şirinoğlu bu günə qədər Azərbaycan tarixinin müxtəlif dövrlərini araşdırmaqla məşğul olubdu. Onun daha çox üz tutduğu zaman kəsiyi sosialist inqilabına qədərki dövrdü. Yəni ermənilərin törətdiyi soyqırımlar, qətliamlar, torpaqlarımızda törədilən vəhşiliklər, eləcə də həmin dövrün saxtalaşdırılmış tarixinin əsl gerçək variantını üzə çıxarmaq. Bəli, son günlərdə Türkiyədə işıq üzü görmüş tarix üzrə elmlər doktoru, dosent Vaqif Şirinoğlunun "Türkiyə 1918-1920-ci illərdə məğlubiyyətdən qələbəyə doğru" kitabı üç dildə, bir cilddə ortaya qoyulub. Yəni kitab Azərbaycan, ingilis və rus dillərində olmaqla bir kitab halında nəşr edilib.***

Mən bu kitabı vərəqlədikcə az-çox bildiyim həqiqətlərlə başqa bir gerçək müstəvidə qarşılaşdım. Kitabın elmi redaktoru, dövlət mükafatı laureatı, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Yaqub Mahmudov, rəyçiləri tarix üzrə fəlsəfə doktorları, dosentlər İlqar Niftəliyev və Natiq Məmmədzadədir. Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunmuş bu kitabda Türkiyə tarixinin 1918-ci il oktyabr ayının 30-da imzaladığı "Mudros" sazişi tarixi baxımdan şərh olunmaqla təqdim edilib. Və tarixçi-araşdırmaçı Vaqif Şirinoğlu həmin zaman kəsiyini məhz mətbuat səhifələrindəki informasiyalar əsasında işıqlandırıb. Həmin dövrün, daha çox isə "Azərbaycan" qəzetinin xəbərlərinə istinad edən Vaqif Şirinoğlu qardaş Türkiyədə baş verən hadisələri xronoloji ardıcıllıqla bir araya gətirib.

**Bu kitabla tanış olan hər bir kəs, xüsusilə tarix elminə maraq göstərən hər bir tələbələr bilgilərdən kifayət qədər yararlana bilərlər. Düşünürəm ki, Vaqif Şirinoğlunun bu mükəmməl elmi kitabı adi oxucudan tutmuş tarixşünaslığımızın, xüsusilə türk tarixşünaslığının öyrəncilərinə yaxşı bir hədiyyədir.**

**Əbülfət MƏDƏTOĞLU**